

Doğma, canım-varlığım qədər sevdiyim Azərbaycanım mənim qibləgahımdır

Qəzet 1921-ci ildən çıxır

# ŞƏRQ qapısı

Təsisçi: Naxçıvan Muxtar Respublikası Ali Məclisi və Nazirlər Kabineti

Sayı: 77 (23.719)

29 aprel 2021-ci il, cümə axşamı

Gündəlik ictimai-siyasi qəzet

www.serqqapisi.az

Qiymәti 20 qәpik


## Rəsmi xronika

Aprelin 28-də Dünya İqtisadi Forumunun prezidentinin təşəbbüsü ilə Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevin forumun prezidenti Borge Brende ilə videokonfrans formatında görüşü olub. Görüşdə ölkəmizlə Dünya İqtisadi Forumu arasında uzunmüddətli səmərəli əməkdaşlığın həyata keçirildiyi bildirilib.

Prezident İlham Əliyev Borge Brendeyə işğaldan azad olunmuş ərazilərimizdə həyata keçirilən infrastruktur layihələri, investisiyaların cəlb olunması barədə məlumat verib. Dövlətimizin başçısı bildirib ki, həmin ərazilərdə yenidənqurma prosesi gedir, qarşıda nəhəng iş durur və böyük bir ərazi tamamilə yenidən qurulacaq. Söhbət zamanı Azərbaycanda pandemiya ilə mübarizə sahəsində görülən tədbirlər də qeyd edilib.

Görüşdə Dünya İqtisadi Forumunun Dördüncü Sənaye İnqilabı Mərkəzləri şəbəkəsinin afilə edilmiş Azərbaycan Mərkəzinin fəaliyyəti vurğulanıb. Dövlətimizin başçısı MDB regionunda ilk bu cür mərkəzin məhz Bakıda yaradılmasına görə minnətdarlığını bildirib, Borge Brendeni Azərbaycana səfərə və mərkəzin fəaliyyəti ilə tanış olmağa dəvət edib.

* * *

Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev həmin gün “Boeing Commercial Airplanes” Şirkətinin prezidenti və baş icraçı direktoru Stenli Dili qəbul edib.



## Akademik Zərifə xanım Əliyevanın anadan olmasının 98-ci ildönümü münasibətilə tədbirlər keçirilib

*Dünən Naxçıvan Muxtar Respublikasının Bakı şəhərindəki Daimi Nümayəndəliyində görkəmli oftalmoloq-alim, akademik Zərifə xanım Əliyevanın anadan olmasının 98-ci ildönümünə həsr olunmuş anım tədbiri keçirilib.*



Fəxri xiyabanda ümummilli lider Heydər Əliyevin və akademik Zərifə Əliyevanın məzarlarının ziyarət edilməsindən sonra başlayan tədbirdə əvvəlcə Azərbaycanın ərazi bütövlüyü, işğal altındakı torpaqlarımızın azad edilməsi uğrunda gedən döyüşlərdə şəhid olmuş qəhrəman Vətən övladlarının, həmçinin akademik Zərifə xanım Əliyevanın əziz xatirəsi bir dəqiqəlik sükutla yad edilib. Daimi Nümayəndəliyin rəhbəri Bəxtiyar Əsgərov Azərbaycanın ən parlaq və tanınmış simalarından olan akademik, görkəmli oftalmoloq-alim, ictimai xadim Zərifə xanım Əliyevanın keçdiyi mənalı və şərəfli həyat yolundan, zəngin elmi irsindən, peşə və ictimai fəaliyyətindən bəhs edib. Qeyd olunub ki, bütövlükdə, parlaq fəaliyyəti ilə tarix salnaməsinə əbədi həkk olunmuş şərəfli və mənalı bir ömür yaşamış, elmin çətin yollarında inamla irəliləyərək tibb elminin ən uca pillələrinə yüksəlmiş akademik Zərifə Əliyevanın xarakterində Azərbaycan ziyalısının ən gözəl xüsusiyyətləri cəmləşmişdir. Taleyini tibb elminə həsr edən görkəmli alim oftalmologiyanın aktual problemlərinə dair çoxsaylı tədqiqatlar aparmışdır. O, bir sıra göz xəstəliklərinin müalicəsində, o cümlədən Azərbaycanda traxomanın kökünün kəsilməsində böyük əmək sərf etmiş, xəstəliyin müxtəlif mərhələlərinin öyrənilməsi və müalicə metodlarının tapılması ilə əlaqədar çoxsaylı elmi əsərlərin, monoqrafiya və dərs vəsaitlərinin müəllifidir. Görkəmli alim gənc nəslin təlim-tərbiyəsində, yüksək səviyyəli həkim-oftalmoloqların, professional elmi kadrların yetişdirilməsində böyük xidmətlər göstərmişdir. O, onlarca elmlər doktoru və elmlər namizədinin elmi məsləhətçisi və elmi rəhbəri olmuş, böyük bir elmi məktəb yaratmışdır. Təkcə Azərbaycanda deyil, onun hüdudlarından kənarda da görkəmli alim kimi tanınan Zərifə Əliyeva oftalmologiya elmində əldə etdiyi nailiyyətlərə, xalqımızın sağlamlığı keşiyində dayanan çoxsaylı həkim-oftalmoloqların yetişdirilməsində göstərdiyi əvəzsiz xidmətlərinə görə Azərbaycanın “Əməkdar elm xadimi” fəxri adına layiq görülmüşdür. Akademik həm də keçmiş SSRİ-nin Sülhü Müdafiə Komitəsinin üzvü, Azərbaycan Sülhü Müdafiə Komitəsi sədrinin müavini kimi fədakarcasına çalışmış, bir sıra xarici ölkələrdə səmərəli görüşlər keçirərək dəyərli çıxışlar, məruzələr etmiş, dünya xalqlarını sülhə, əmin-amanlığa səsləmişdir.

Daimi Nümayəndəliyin rəhbəri qeyd edib ki, Zərifə xanım görkəmli ictimai xadim kimi keçmiş SSRİ Sülhü Müdafiə Komitəsinin üzvü, Azərbaycan Sülhü Müdafiə Komitəsi sədrinin müavini, Ümumittifaq “Bilik” Cəmiyyəti İdarə Heyətinin, Ümumittifaq Oftalmoloqlar Elmi Cəmiyyəti Rəyasət Heyətinin üzvü olmuşdur. Vurğulanıb ki, müstəqil Azərbaycan Respublikasının qurucusu və memarı, xalqımızın ümummilli lideri Heydər Əliyevin ömür-gün yoldaşı və ölkəmizi yeni inkişaf mərhələsinə çıxaran, beynəlxalq aləmdə onun nüfuzunu daha da artıran, ən əsası uzun illər işğal altında olan torpaqlarımızı azad edərək adını şanlı hərb tariximizə qızıl hərflərlə yazan böyük sərkərdəmiz, Prezident cənab İlham Əliyevin anası olmaq kimi böyük xoşbəxtlik məhz Zərifə xanıma nəsib olmuşdur. Bildirilib ki, doğma Vətənimiz Azərbaycanda və onun ayrılmaz parçası olan Naxçıvan Muxtar Respublikasında onlarla məktəb, xəstəxana, poliklinika, bağ və parklar, küçələr akademik Zərifə Əliyevanın adını daşıyır. Onun xatirəsinə ucaldılan abidələr görkəmli alimə, əziz, mehriban anaya və əsl insana olan ehtiramın və məhəbbətin tükənməz təzahürüdür. Akademik elm, təhsil, səhiyyə, eləcə də ictimai-siyasi sahələrdəki misilsiz xidmətlərinə görə xalqımızın yaddaşında şəfqətli həkim, səmimi və sədaqətli Azərbaycan qadını kimi daim yaşayacaqdır.

Tədbir digər çıxışlarla davam edib.

**AZƏRTAC**

* * *

***Akademik Zərifə Əliyeva adına Naxçıvan Şəhər Poliklinikasında görkəmli oftalmoloq-alimin anadan olmasının 98-ci ildönümü münasibətilə keçirilən tədbirdə əvvəlcə akademik Zərifə xanım Əliyevanın poliklinikanın foyesindəki büstü önünə gül dəstələri qoyulub, tədbir iştirakçıları onun xatirəsinə həsr olunmuş guşə ilə tanış olublar.***

Naxçıvan Muxtar Respublikası Səhiyyə nazirinin müavini Samrat Gəncəyeva qeyd edib ki, milli oftalmologiyanın banisi akademik Zərifə xanım Əliyevanın keçdiyi həyat yolu, misilsiz xidmətləri, apardığı tədqiqatlar əsl məktəbdir. Vurğulanıb ki, Naxçıvan Şəhər Poliklinikası 1990-cı ildən görkəmli oftalmoloq-alim, akademik Zərifə xanım Əliyevanın adını daşıyır, bu səhiyyə müəssisəsində işləmək hər bir tibb işçisi üçün böyük məsuliyyətdir.

Sonra məruzələr dinlənilib, tədbirdə görkəmli akademikin həyatından və çoxşaxəli fəaliyyətindən bəhs edən sənədli film nümayiş etdirilib, Naxçıvan Qızlar Liseyinin şagirdləri tərəfindən şeirlər bədii qiraət olunub.

Yeni Azərbaycan Partiyası Naxçıvan Şəhər Təşkilatının qadın fəalları akademik Zərifə xanım Əliyevanın anadan olmasının 98-ci ildönümünü qeyd ediblər. Bu münasibətlə Naxçıvan Qızlar Liseyində keçirilən tədbiri giriş sözü ilə açan liseyin direktoru, Naxçıvan Muxtar Respublikası Ali Məclisinin deputatı Aidə Allahverdiyeva “Akademik Zərifə xanım Əliyevanın həyat yolu” mövzusunda çıxış edib. Bildirib ki, Zərifə xanım Əliyeva həm məşhur həkim və alim, həm ictimai xadim, həm də əsl Azərbaycan qadını kimi zəngin həyat yolu keçib. Zərifə xanım alim və həkim kimi özünün bütün mənalı həyatını doğma xalqının sağlamlığı və milli oftalmologiya elminin inkişafı uğrunda mübarizəyə həsr edib. Həkim etikası və tibbi deontologiyaya da öz elmi tədqiqatlarında geniş yer ayıran Zərifə xanımın rəhbərliyi altında çoxlu gənc alimlər və həkim-oftalmoloqlar yetişib.

Sonra çıxışlar olub, Naxçıvan Qızlar Liseyinin şagirdləri Zərifə xanım Əliyevaya həsr olunmuş şeirlər səsləndiriblər.

Naxçıvan Muxtar Respublikası Təhsil Nazirliyi və Kəngərli Rayon İcra Hakimiyyətinin birgə təşkilatçılığı ilə Akademik Zərifə Əliyeva adına Şahtaxtı kənd tam orta məktəbində keçirilən tədbirdə əvvəlcə görkəmli akademikin məktəbin foyesindəki büstü önünə gül dəstələri qoyulub, alimin həyat və fəaliyyətini əks etdirən muzeylə yaxından tanışlıq olub.

Tədbirdə Naxçıvan Muxtar Respublikası Təhsil nazirinin müavini Heyran Əhmədova və Kəngərli Rayon İcra Hakimiyyəti başçısının müavini Səriyyə Qurbanova çıxış edərək oftalmologiya elminə böyük töhfələr vermiş akademik Zərifə Əliyevanın həyat və fəaliyyətindən, yüksək mənəvi keyfiyyətlərindən danışıblar. Bildirilib ki, akademik Zərifə xanım Əliyeva respublikamızda tibb elminin inkişafına mühüm töhfələr verərək oftalmologiyanın aktual problemlərinə dair sanballı tədqiqatları ilə böyük şöhrət qazanmışdır. Alimin elmi-pedaqoji və ictimai fəaliyyəti həkimlərin yeni nəslinin yetişməsinə və Azərbaycanda oftalmologiya elminin inkişafına güclü təsir göstərmiş, bundan sonra da təsir göstərəcəkdir.

Sonra çıxışlar olub, məktəbin şagirdləri Zərifə xanım Əliyevaya həsr olunmuş şeirləri bədii qiraət ediblər, akademikin həyat və fəaliyyəti ilə bağlı filmə baxılıb.

**Xəbərlər şöbəsi**

## Muxtar respublikada internetə olan tələbatın ödənilməsi diqqətdə saxlanılır

*Naxçıvan Muxtar Respublikasında sosial-iqtisadi inkişafın sürətləndirilməsi bütün sahələrdə olduğu kimi, rabitə sahəsinin gələcək inkişafına, hər bir vətəndaşın onun müasir texnologiyalarından bəhrələnməsinə geniş imkanlar açıb.*

Naxçıvan Muxtar Respublikası Ali Məclisi Sədrinin diqqət və qayğısı ilə rabitə və yeni texnologiyalar sahələrinin müasir tələblər səviyyəsində qurulması istiqamətində bir sıra layihələr həyata keçirilir. Bunun üçün kifayət qədər şərait yaradılıb. Əhaliyə göstərilən telekommunikasiya xidmətlərinin keyfiyyətinin yaxşılaşdırılması, rabitə və informasiya sistemlərinin inkişafı və yeni texnologiyaların tətbiqi məqsədilə reallaşdırılmış tədbirlər muxtar respublikanın sosial-iqtisadi inkişafında bu sahənin rolunu daha da artırıb.

Rabitə sistemində yeni texnologiyaların tətbiqi, internet şəbəkəsinin genişlənməsi günümüzün tələbləri sırasındadır. Görülən işlərin nəticəsidir ki, bu gün muxtar respublikanın bütün yaşayış məntəqələrində əhaliyə ən müasir telekommunikasiya xidmətləri göstərilir. Hazırda Naxçıvan şəhərinin Mirzə Ələkbər Sabir, Firdovsi və Yunis Cabbarov küçələrində aparılan quruculuq işləri çərçivəsində sakinlərin ən müasir rabitə, internet və kommunikasiya xidmətlərindən yararlanması məqsədilə yenilənmə işləri görülür.

Naxçıvan şəhəri ilə yanaşı, rayonlarda da telekommunikasiya şəbəkəsinin inkişafına dair layihələr icra olunur. Yeni nəsil rabitə texnologiyalarının qurulması və nəticədə əhalinin dayanıqlı rabitə, yüksəksürətli internet və digər xidmətlərlə təmin olunması istiqamətində işlər davam etdirilir. Cari il ərzində əhalinin internet xidmətlərinə olan tələbatının təmin edilməsi, eyni zamanda keyfiyyətli, kəsintisiz və çoxçeşidli rabitə xidmətlərinin təmini məqsədilə bir sıra tədbirlər həyata keçirilməkdədir. Şəhər, rayon mərkəzlərində və kəndlərdə fəaliyyət göstərən avtomat telefon stansiyalarına internet plataları əlavə edilib. Belə ki, Naxçıvan şəhərində 42, Şərur rayonunda 47, Babək rayonunda 29, Ordubad rayonunda 9, Culfa rayonunda 1, Şahbuz rayonunda 26, Kəngərli rayonunda 19, Sədərək rayonunda 9 olmaqla, ümumilikdə, 182 ədəd 32, 48 və 64 yerlik internet plataları avtomat telefon stansiyalarına əlavə edilib. Nəticə etibarilə, muxtar respublika üzrə 6000-ə yaxın internet istifadəçisinin tələbatının ödənilməsinə şərait yaranıb ki, gündəlik daxil olan müraciətlərə əsasən abonentlər yüksəksürətli ADSL (asimmetrik rəqəmsal abunəçi xətti) internetlə təmin olunurlar.

***Naxçıvan Muxtar Respublikası Rabitə və Yeni Texnologiyalar Nazirliyinin mətbuat xidməti***

***Arılar dünya iqtisadi və ekosistemin ən vacib canlılarından hesab olunur. Bu canlılar bir tərəfdən başda bal olmaqla, arıçılıq məhsullarının yaranmasına səbəb olursa, digər tərəfdən bir çox bitkinin tozlanmasını təmin edərək onların məhsuldarlığını və keyfiyyətini artırır. Qeyd etmək lazımdır ki, çoxəsrlik tarixə malik olan arıçılıq bütün dünyada qədim məşğuliyyət növlərindən biri hesab olunur. Əhalinin məşğulluğunun təmin edilməsindəki rolu isə arıçılığın sosial əhəmiyyətini xarakterizə edən mühüm cəhətdir. Beləliklə, arıçılığın inkişafı aqrar sahədə geniş sosial-iqtisadi imkanların yaranması deməkdir.***

*Dövlət proqramı icra olunur*

# Arıçılığın inkişafı üçün davamlı tədbirlər görülür



Arıçılıq Azərbaycanda çox qədim tarixə malikdir. Ölkəmizin əlverişli iqlimi, zəngin bitki örtüyü iqtisadi cəhətdən gəlirli olan bu sahənin inkişafını şərtləndirən başlıca amillərdəndir. Ölkə Prezidenti cənab İlham Əliyev arıçılığın inkişaf etdirilməsinin vacibliyini vurğulayaraq demişdir: ***“Arıçılığın da çox böyük ixrac potensialı var. Azərbaycan dünya miqyasında arıçılıq, bal istehsalı sahəsində önəmli yer tuta bilər”.***



Bu sahənin inkişaf etdirilməsi üçün əlverişli iqlim şəraitinin və zəngin yem ehtiyatlarının mövcudluğu başlıca şərtlərdən hesab olunur. Naxçıvan Muxtar Respublikasının məhsuldar torpaq və zəngin bitki örtüyü bu ərazidə insanların arıçılıq təsərrüfatı ilə məşğul olmasına əlverişli şərait yaradır. Arıçılığın inkişafına göstərilən dövlət dəstəyi isə bu sahədə fəaliyyət imkanlarının genişləndirilməsi üçün mühüm stimullaşdırıcı əhəmiyyətə malikdir. Naxçıvan Muxtar Respublikası Ali Məclisi Sədrinin 2016-cı il 18 noyabr tarixli Sərəncamı ilə təsdiq edilmiş “2017-2022-ci illərdə Naxçıvan Muxtar Respublikasında arıçılığın inkişafı üzrə Dövlət Proqramı”nın giriş hissəsində qeyd olunduğu kimi: *“Muxtar respublikada arıçılığın inkişafı, eləcə də bu sahədə məhsuldarlığın yüksəldilməsi üçün davamlı tədbirlər görülür. Belə ki, arı ailələrinin və arıçılıq məhsullarının çeşidinin artırılması, arıçılıqda xəstəliklərə qarşı mübarizə tədbirlərinin gücləndirilməsi keyfiyyətli məhsul istehsalına və bazarın yerli istehsal hesabına təmin olunmasına şərait yaratmışdır”.*

Adıçəkilən Dövlət proqramının icrası yanvar-mart aylarında da davam etdirilmiş, 5 arıçılıq təsərrüfatına 34 min manat dövlət maliyyə dəstəyi göstərilmişdir. Birinci rübdə dövlət maliyyə dəstəyi hesabına Naxçıvan şəhəri və Şərur rayonlarının hər birində 1 arıçılıq təsərrüfatının yaradılması başa çatdırılmışdır. Həmçinin bu dövrdə dövlət maliyyə dəstəyi hesabına Babək və Ordubad rayonlarının hər birində 1, Şahbuz rayonunda 2 arıçılıq təsərrüfatının yaradılması, Naxçıvan şəhərində 1 arıçılıq təsərrüfatının genişləndirilməsi davam etdirilmişdir. Sahibkarlara subsidiyaların verilməsi üçün arı ailələrinin nömrələnərək qeydiyyata alınması mart ayından başlanılmışdır. Birinci rübdə 37 arı ailəsinin sığortalanması arıçılıq təsərrüfatlarının baş verə biləcək gözlənilməz hadisələrin zərərlərindən qorunması üçün xüsusi əhəmiyyət daşıyır.

Arı ailələrinin mum vərəqi ilə təmin edilməsi arıçılıqda həyata keçirilən ən mühüm tədbirlərdən biridir. Arı mumunun təmiz və keyfiyyətli olması arıçılığın inkişafına təsir edən əsas amillərdən hesab olunur. Arı ailələrində məhsuldarlığın yüksək, arı xəstəliklərinin az olması mum vərəqlərinin keyfiyyətindən əhəmiyyətli dərəcədə asılıdır. Birinci rübdə Dövlət proqramının icrasına uyğun olaraq Şahbuz şəhərində yerləşən “Naxçıvan Arıçılığı” Məhdud Məsuliyyətli Cəmiyyətində 350 kiloqram mum vərəqi istehsal edilmişdir. Müəssisədə, eyni zamanda sınaq məqsədli 300 kiloqram arı yeminin istehsal edilərək arıçılara paylanması bu sahədə fəaliyyət imkanlarının genişlənməsindən xəbər verir.

Uğurlu bir arıçılıq fəaliyyəti üçün nektar və çiçək tozu ilə zəngin olan bitkilərin yayıldığı sahələrin geniş olması şərtdir. Zəngin təbii yem ehtiyatlarının olması arıçılıqda məhsuldarlıq səviyyəsini yüksəldən faktorlardan biridir. Dövlət proqramının icrasına uyğun olaraq muxtar respublikamızda yaşıllaşdırma tədbirləri həyata keçirilərkən balyığma mənbələrinin çoxaldılmasına xüsusi önəm verilir. Birinci rübdə Ekologiya və Təbii Sərvətlər Nazirliyi tərəfindən 7 hektar sahədə nektar və çiçək tozu ilə zəngin olan meyvə bağları salınmışdır. Balyığma mənbəyi hesab olunan ağac və kol bitkilərinin yayıldığı əraziləri genişləndirmək məqsədilə dağlıq və orta dağlıq ərazilərdə 58 hektar sahədə meyvə və giləmeyvə toxumları ilə əkin aparılmışdır. Gələcəkdə etibarlı ting təminatının formalaşdırılması məqsədilə 1 hektar sahədə toxmacarlıq yaradılarkən çiçək tozu ilə zəngin olan bitkilərə üstünlük verilmişdir.

Muxtar respublikamızda keyfiyyətli kənd təsərrüfatı məhsullarının istehsalı xüsusi diqqət yetirilən məsələlərdən biridir. İnsan sağlamlığının qorunmasının prioritet istiqamətlərdən biri olması istehsal edilən məhsulların keyfiyyətinin nəzarətdə saxlanılmasını zəruri edir. Birinci rübdə arıçılıq təsərrüfatlarında istehsal olunan təbii bal məhsulundan 3 halda nümunələr götürülərək keyfiyyət və təhlükəsizlik göstəricilərinin təyin olunması məqsədilə Mərkəzi Qida Sınaq Laboratoriyasına təqdim edilmişdir. Məhsulların laboratoriya təhlilləri aparılmış, nümunələrin keyfiyyət göstəricilərinin normativ-texniki sənədlərin tələblərinə uyğun olduğu müəyyən edilmişdir.



Arıçılıqda məhsuldarlığı aşağı salan təhlükəli faktorlardan biri arı xəstəlikləridir. Baş verə biləcək xəstəliklərə qarşı arıçıların vaxtında müvafiq preparatlarla təmin edilməsi bu sahədə həyati əhəmiyyət daşıyır. Muxtar respublikamızda heyvandarlıq – arıçılıq sahələri üzrə əczaxanaların sayının ildən-ilə artması arı xəstəlikləri ilə mübarizə sahəsində imkanların çoxalmasına şərait yaradır. Birinci rübdə Dövlət Baytarlıq Xidmətinə Babək şəhəri və Sədərək rayonunda yeni əczaxanaların açılması ilə bağlı müraciət daxil olmuşdur. Müraciətlərə müvafiq olaraq araşdırma aparıldıqdan sonra müvafiq lisenziyalar təqdim edilməklə heyvandarlıq – arıçılıq sahələri üzrə 2 yeni əczaxananın fəaliyyətə başlaması təmin edilmişdir.

Dövlət proqramının icrasına uyğun olaraq maarifləndirici tədbirlərin keçirilməsi də diqqətdə saxlanılır. Arıçı sahibkarlarla keçirilən görüşlər və verilən mütəxəssis məsləhətləri bu sahədə fəaliyyətin yüksək məhsuldarlıq prinsipləri əsasında qurulmasına imkan yaradır. Yanvar-mart aylarında Şərur rayonunun Tənənəm, Axura, Qarxun, Culfa rayonunun Qazançı, Camaldın, Ordubad rayonunun Dəstə, Çənnəb, Yuxarı Əndəmic kəndlərində və Babək şəhərində arıçılar və yerli sakinlərlə görüşlər keçirilmişdir. Keçirilən görüşlərdə yem bitkilərinin çiçəkləmədən sonra biçilməsi, arıxanaların yerləşdiyi ərazilərdə balyığma mənbəyi olan ağac və kolların kəsilməsinin qarşısının alınması məqsədilə maarifləndirici söhbətlər aparılmışdır. Birinci rübdə “Arıçılığın məhsuldarlığı etibarlı yem bazasından asılıdır”, “Bal arılarının beçəverməsi”, “Erkən yaz dövrü arıçının arıxanada ilk işi” və “Yaz mövsümündə arı ailələrinə necə qulluq edilməli” adlı bukletlər dərc edilərək sahibkarlara paylanmışdır. Həmçinin bu dövrdə rayon qəzetlərində arıçılıq sahəsi üzrə müxtəlif mövzularda 5 məqalə dərc olunmuşdur. Fevralın 5-də Naxçıvan Dövlət Universitetində 20 arıçı sahibkarın iştirakı ilə seminar keçirilmişdir. Seminarın sonunda arıçılara sertifikatlar təqdim olunmuşdur.

Görülən işlər deməyə əsas verir ki, Naxçıvanda arıçılığın inkişafı və müvafiq Dövlət proqramında nəzərdə tutulan tədbirlərin icrası uğurla davam etdirilir. O da qeyd olunmalıdır ki, muxtar respublikada son illər ekoloji tarazlığın qorunması, təbiətin zənginləşdirilməsi, yaşıllıq sahələrinin genişləndirilməsi arıçılığın inkişafı üçün geniş imkanlar açmışdır. Bunun nəticəsidir ki, arıçılıqla məşğul olanların sayı ildən-ilə artır, əldə olunan məhsul, nəinki Naxçıvan, ölkə bazarlarına çıxarılır və böyük alıcı rəğbəti qazanır.

**“Şərq qapısı”**

# Muxtar respublikada tütün əkininə başlanılıb



Naxçıvan Muxtar Respublikasında inkişaf etdirilən kənd təsərrüfatı sahələrindən biri də tütünçülükdür. 2017-ci ildən başlayaraq “Cahan Tabak Beynəlxalq” Məhdud Məsuliyyətli Cəmiyyəti tərəfindən Kəngərli rayonunun Təzəkənd və Xıncab kəndlərinin ərazilərində yetişdirilən tütün şitilləri muxtar respublikanın bir çox bölgələrində əkilir.

Ötən dövrdə “Vircinya”, “Oriental” və “İzmir” sortlarının yetişdirildiyi Tütün Yetişdirmə Təsərrüfatında bu il “Vircinya” və “Pirlep-66” sortlarından olan tütünlər əkilib. Belə ki, yetişdirilən tütün şitillərinin 1,5 hektarını “Pirlep-66”, 4,5 hektarını isə “Vircinya” sortu təşkil edib. Burada 40-a yaxın kənd sakini mövsümi işlərə də cəlb olunub. Artıq istixana şəraitində yetişdirilən tütün şitillərinin əkin sahələrinə köçürülməsinə başlanılıb.

Cəmiyyətdən aldığımız məlumata görə, bu günədək Şərur və Babək rayonlarının hər birində 2, Kəngərli rayonunda isə 6 hektar sahədə tütün əkilib. Ümumilikdə isə bu il 60 hektar sahədə tütün əkilməsi nəzərdə tutulub.

**Səbuhi HƏSƏNOV**

*İstehsal müəssisələri*

# Mebelin doğru ünvanı – “Bellissa”

Əvvəllər qızımıza cehiz mebel almaq üçün Bakıya, Şəkiyə üz tutardıq... Artıq bir neçə ildir ki, muxtar respublikamızda belə keyfiyyətli avadanlıqlarla dolub-daşır dükan-bazarlarımız. Ürəyin istəyən çarpayını, divanı, stolu seçirsən, həm də sərfəli qiymətə qapınıza gətirirlər. “İndi daha yun yu, döşək sal dərdi də yoxdur. Bu fabrikdə elə gözəl döşəklər var ki, elə bil qu tüküdür”, – deyir Nəcibə nənə. Onu sevindirən isə uzaq yolların yaxınlaşması deyil təkcə. Fərəhlənir ki, daha çox seçim var burada, həm də münasib qiymətə...



Nəcibə nənənin bu tərif dolu sözlərindən sonra həmin ünvana – “Gəmiqaya Mebel Fabriki” Məhdud Məsuliyyətli Cəmiyyətinə üz tuturuq. Fabrikin qapısından girən kimi gözəl əşyalarla bəzənmiş zala daxil oluruq. Öyrənirik ki, istehsal müəssisəsi 10 ildən artıqdır, fəaliyyətə başlayıb. Burada müxtəlif çeşiddə məhsul istehsalı üçün Almaniya, İtaliya və Türkiyədən müasir texnoloji avadanlıqlar alınıb quraşdırılıb. Hazırda fabrikdə divan-kreslo və yumşaq oturacaqlı stullar, həmçinin ofis, mətbəx, yataq, qonaq və uşaq otağı mebelləri hazırlanır.

Müəssisədə olarkən onu da öyrənirik ki, ötən dövrdə artan tələbat nəzərə alınaraq yeni istehsal sahələrinin yaradılmasına təşəbbüs göstərilib. Bu təşəbbüs dövlət qayğısı nəticəsində reallaşıb. Belə ki, fabrik tərəfindən silikon yorğan-döşək və yataq bazası istehsalı sahələrinin biznes-planı hazırlanaraq muxtar respublikanın Sahibkarlığın İnkişafı Fonduna təqdim edilib. Layihəyə uyğun olaraq müəssisənin ərazisində yeni istehsal sahəsi üçün bina inşa edilib. Türkiyənin “Elektroteks” və “İMS Makina” şirkətlərindən avadanlıqlar alınıb gətirilib və idxal olunan dəzgahlar həmin şirkətlərin mütəxəssisləri tərəfindən quraşdırılıb. İstehsal sahəsində çalışan yerli mütəxəssislərin hazırlanması üçün işçilərin ixtisasartırma kurslarında iştirakı təmin edilib.

Burada məhsulların keyfiyyətinə nəzarət edilməsi üçün laboratoriyada müasir avadanlıqlar quraşdırılıb. Hazırlanan məhsulların satışı da diqqət mərkəzində saxlanılır. “Gəmiqaya” tanıtım nişanı ilə istehsal olunan bu məhsullar fabrikin sərgi-satış salonunda, Naxçıvan şəhərinin Babək məhəlləsində və Ordubad şəhərində fəaliyyət göstərən mebel mağazalarında satışa çıxarılır. Sevindirici haldır ki, müəssisənin istehsal etdiyi müxtəlif dizaynlı mebellər ölkəmizin digər regionlarında da böyük alıcı rəğbəti qazanıb. Bunlar nəzərə alınaraq müəssisənin Bakı şəhərinin Nərimanov və Xalqlar prospektlərində mağazaları, Sumqayıt, Gəncə, Lənkəran şəhərlərində və Azərbaycanın digər bölgələrində satış nümayəndəlikləri yaradılıb. Müəssisə işçiləri qazanılan nailiyyətlərlə kifayətlənməyib gələcəkdə daha böyük uğurlara imza atmaq üçün çalışırlar.

*Hamı evimizi bəzəyən gözəl mebellərin olmasını arzulayır. Sevindirici haldır ki, bu gün hər bir muxtar respublika sakini xaricə getmədən Naxçıvanda istehsal olunan dünyanın ən müasir mebelləri ilə rəqabətə girə biləcək keyfiyyətli məhsullar əldə edə bilər. Bu imkanı isə sakinlərə dövlətimiz yaradıb.*

**Ramiyyə ƏKBƏROVA**

*İllərin həsrətinə, hicranına son qoymaq naminə axır nəfəsədək vuruşaraq Böyük Qələbə sevincini xalqımıza bəxş edən, tariximizin şanlı 2020-ci səhifəsini al qanları ilə yazan Vətən fədailərindən Mətin Hüseynov və İntiqam Abdullayev. Xatirələri nisgilli, qəmli gözlərə işıq, nur gətirən, igidlikləri pərişan qəlblərə təsəlli, hüzur bəxş edən, əziz şəhid qardaşlarım, yəqin ki, canından məğrurcasına keçən digər vətənpərvər oğullarla birgə indi cənnət bağında əyləşib seyr edirsiniz zəfər çələngi ilə bəzənən el-obamızı, fəxarət hissi keçirirsiniz Müzəffər Ali Baş Komandanın, vüqarlı ata-anaların, qardaş-bacıların şəninizə söylədikləri qürur dolu sözlərdən. Hər səhifəsi mərdlik, şücaətlik, mübarizlik, sədaqətlik ətri saçan, bir almanın iki üzü qədər bənzəyən ömür kitablarınıza nəzər yetirdikcə "Əbədi dostluq, əbədiyyət yolu" adlı bir hekayə canlanır yaddaşımda...*

*Əfsanəyə dönən ömürlər*

## Əbədi dostluq, əbədiyyət yolu...



1997-ci il oktyabrın 20-də Mətin Hüseynovun, bir il sonra avqustun 12-də isə İntiqam Abdullayevin Ordubadın Düylün kəndində dünyaya göz açması ilə başlandı bu hekayə: Qəhrəmanların ömür yolları şən uşaqlıq çağlarından yaxınlaşdı, küçə-bacada qovalaqaç, gizlənqaç oyunları əsnasında gah küsüb, gah barışmaqla çərkişib-bərkişdilər, incə dostluq telləri ilə bağlandılar bir-birlərinə. Vaxt ötdü, vədə yetişdi, eyni gündə eyni sinfə qədəm qoydular, oxudular, öyrəndilər, şirin anlarla, munis xatirələrlə dolu məktəb illərində nümunəvi davranışları ilə müəllimlərin hörmət-izzətini qazanmaqla yanaşı, həm də idman yarışlarında, müsabiqələrdə fərqlənərək valideynlərinin də başını uca etməyi bacardılar. Elə ki məktəbin yuxarı siniflərinə addımladılar, hər bir yeniyetmə, gənc kimi onların da gələcəklə bağlı planları yarandı, məqsədləri, inamları qəti olduğundan, heç şübhəsiz, onu gerçəkləşdirməyə əzmləri, gücləri də yetəcəkdi...

Məşhur bir aforizmdə deyilir ki, məndən qabaqda getmə, mən sənin arxanca gedə bilmərəm. Məndən arxada gəlmə, mən səndən qabaqda gedə bilmərəm. Mənimlə yanaşı addımla və mənim dostum ol! Bəli, bu hikmətli sözlərdə də təlqin edilən, günümüzdə nadir hallarda rast gəlinən əsl dostluq, sirdaşlıq xüsusiyyətləri bütün mahiyyəti ilə sirayət etmişdi Mətin və İntiqamın dünyasına. Məhz elə buna görədir ki, dostluq körpüsü qurulandan bəri ömrün acılı-şirinli, enişli-yoxuşlu yollarında da bir-birinə dayaq durdular, eyni addımı atdılar, amalları da, məqsədləri də, arzuları, niyyətləri də bir oldu, son anadək dəyişmədi məramları. Bütün məsələlərdə olduğu kimi, gələcək peşələri ilə bağlı fikirləri də üst-üstə düşdü, Mətinin hərbçi kimi yetişib Vətənimizin keşiyində ayıq-sayıq durmaq və bir gün Ali Baş Komandanın əmri ilə yağı düşməni ata-baba torpaqlarımızdan qovub çıxarmaq məqsədi İntiqam üçün də həyat amalı oldu. Valideynlərinin də razılığını alaraq keşməkeşli, eyni zamanda da şərəfli bir yola birgə qədəm qoydular, 2013-cü ildə Naxçıvan şəhərindəki Heydər Əliyev adına Hərbi Liseyin kursantı adını qazananlar sırasında onlar da var idi. Liseydə təhsil aldıqları illərdə nizam-intizamları, praktik dərslərdəki çevikliyi, ayıqsayıqlığı, hərbi idman yarışlarındakı uğurları ilə seçimlərində yanılmadıqlarını sübut edib, bu şərəfli peşənin haqqını verməyə çalışdılar. Peşəkar hərbçi kadr kimi yetişmək üçün növbəti üz tutduqları ünvan isə, təbii ki, Heydər Əliyev adına Azərbaycan Ali Hərbi Məktəbi oldu. Ali Hərbi Məktəbdə oxuduqları illərdə də təlimlərdəki bacarıqları ilə fəxri fərman, təşəkkürnamələr alaraq valideynlərini qürurlandırmaqla yanaşı, evdən, ailədən uzaqda bir-birinə həmdəm oldular, çətin günlər dostluq bağlarını da daha möhkəm, dəyanətli etdi.

Deyirlər, həyatda təsadüf yoxdur, olacaqları yaşayırıq. Elə Mətinlə İntiqam da hərbçi peşəsini həyat amalı seçəndə onun çətinliklərini gözə alaraq bir gün ayrı-ayrı xidmət yerlərinə üz tutacaqlarını da yəqin etmişdilər. Dostluqları kimi sevib-seçdikləri peşənin də qarşıya çıxaracağı maneələr təsadüfi olmayacaqdı, lakin heç bir qüvvə həqiqi istəyin, arzunun, niyyətin qarşısında dözüm gətirə bilmədiyi kimi, qırılmaz mənəvi tellərlə bağlanan bu iki əbədi sirdaşı da bir-birindən qəlbən uzaqlaşdırmaq mümkün deyildi. Beləcə, ürəklərində sonsuz torpaq eşqi, yurd sevdası bəsləyən iki dost 2020-ci ildə Ali Hərbi Məktəbi bitirərək şərəfli zabit adının məsuliyyətini, leytenant rütbəsini çiyinlərinə götürərək Vətənin keşiyinə yollandılar. Mətin Ağcabədi, İntiqam isə Qazax rayonunun "N" hərbi hissəsinə taqım komandiri vəzifəsinə təyinat aldı və qısa müddətdə nümunəvi xidmətləri ilə özlərini doğrultmağı bacardılar...

Vətən müharibəsi başlanmazdan bir neçə ay qabağa, düşmən təxribatlarının çoxaldığı bir vaxta təsadüf etdi xidmətləri, bütün yurdsevər oğullar kimi, onlar da əli silahda Ali Baş Komandanın əmrinə müntəzir halda gözləyirdilər. Hər ikisi ön xətdə əsgərləri ilə birgə mətinliklə dayanmışdılar Vətənimizin keşiyində. Artıq bir neçə vaxt idi ki, bölmələrimiz düşmənin müharibə hazırlığını müşahidə edirdi, tezliklə növbəti təxribatın olacağı da, şübhəsiz ki, gözlənilirdi. 27 sentyabr tarixi – 30 illik səbrin, möhnətin sona çatdığı, haqq-ədalət çırağının yenidən şölə saçdığı həmin gün. Beləliklə də, Ali Baş Komandanın göstərişi ilə ordumuzun bölmələri "artıq yetər", – deyib əks-hücum əməliyyatına başladı, 2800-dən artıq Vətən övladı kimi Mətin və İntiqamı da böyük yolçuluğa çıxardı bu yol – əbədiyyətə uzanan şərəfli, layəqətli yolçuluğa. Bir neçə gün ərzində düşmən qüvvələrə qarşı cəsarətlə vuruşan İntiqam Abdullayev oktyabrın 2-də şiddətli döyüşlərdə qəhrəmancasına şəhid olsa da, dostu Mətin bu hadisədən uzun müddət bixəbər qaldı. Ta ki o müqəddəs marama çatdığı əbədi görüş günündək...

Ailəsi ilə hər telefon söhbətində dostu barədə şad xəbər eşitmək arzusu ürəyində qalan, 42 gün ərzində döyüşlərdə dəfələrlə yaralanmağına baxmayaraq, əzmini itirməyən Mətin İntiqamın sağ-salamat qayıtması üçün öz əməkhaqqından qurban da dedi. Noyabrın 3-ü sonuncu dəfə zəng vurmuşdu evə. Zümrüd xanımla söhbətində "Ana, az qalır artıq, inşaallah, tezliklə torpaqlarımızın azadlıq müjdəsini verəcəyəm, dostum İntiqamla birgə zəfər nidalı üçrəngli bayrağımıza sarılıb dönəcəyik məmləkətə", – söylədi. Bəli, doğru deyiblər ki, alın yazısından qaçmaq olmaz, gələcəklə bağlı nə qədər plan hazırlasan da, planda olanı deyil, qismətinə düşəni yaşayarsan. Elə tale də Mətin və İntiqama zəfər bayramını cismani deyil, ruhən qeyd etməyi nəsib bilmişdi. Müzəffər Ordumuzu Böyük Qələbəyə aparan o günlər məhz iki əbədi dostu da həyatda deyil, əbədiyyət yolunda görüşdürdü. Mətin Hüseynov noyabrın 22-də dünyaya göz açdığı Düylün kəndində torpağa tapşırıldı, İntiqam Abdullayev isə şəhadətə yetməsindən 165 gün sonra dostunun yanında dəfn olundu...

Ey zəfər təntənəli üçrəngli bayrağımızın əbədi yüksəkliyə qalxması naminə canını fəda edən əziz şəhid qardaşlarım – Mətin və İntiqam, yan-yana məzarlarınız bu gün hər bir azərbaycanlının ziyarət yerinə çevrilməklə yanaşı, sağlam təməllər üzərində qurulan əbədi dostluğunuz, sirdaşlığınız, mübarək amallara xidmət edən döyüş yolunuz da böyük örnəkdir uşaqlara, gənclərə. Böyüyüb yaşa dolduqunuz Düylündə kimdən soraqlaşırsan, sizin mərdliyinizdən, ailəcanlığınızdan, mehriban, səmimi münasibətinizdən danışır, bir vaxtlar təhsil aldığınız məktəbdə hər gün müəllimləriniz böyük ehtiramla adınızı anır, xatirələrinizi yada salır, şagirdlər sizdən həyat dərsi, vətənpərvərlik nümunəsi götürür, sizin kimi igidlərimizə həsr olunmuş şeirləri sevə-sevə qiraət edir balacalar. Böyük demokrat Mirzə Cəlilin dediyi "Elə yaşamalısan ki, öləndən sonra da ölməyəsən – həyatın məqsədi məhz budur" sözlərinin əməldə təcəllası hər kəsə nəsib olmur, 30 illik həsrətimizə, nisgilimizə son qoymaqla bu ali məqsədə, marama çatdınız, ruhunuz şad olsun, ey Vətən oğulları...

**Nail ƏSGƏROV**

*Dövlət proqramı icra olunur*

## Xüsusi qayğıya ehtiyacı olan fidanlarımızın cəmiyyətə inteqrasiyası təmin edilir

*Sağlamlıq imkanları məhdud uşaq, yeniyetmə və gənclərin bir fərd olaraq özünəqulluq bacarıqlarına malik olması, müəyyən vərdişlərə yiyələnməsi, fiziki və əqli inkişafına uyğun şəkildə təhsil almaları onların inkişaf səviyyəsini şərtləndirən əsas amillərdən biridir. Əqli və fiziki imkanlarının məhdudluğundan asılı olmayaraq, hər bir insanın cəmiyyətə inteqrasiyasının təmin edilməsinə nail olmaq təkcə müəyyənləşdirilən missiya deyil, həm də müqəddəs bir vəzifədir. Muxtar respublikamızda bu istiqamətdə aparılan islahatlar, xüsusən də qəbul olunan Dövlət proqramları həyata keçirilən tədbirlərin daha sistemli və keyfiyyətli şəkildə icrasını təmin edir.*



Elə biz də bu istiqamətdə görülən işlər, Ali Məclis Sədrinin 2021-ci il 15 mart tarixli Sərəncamı ilə təsdiq olunan "2021-2025-ci illərdə Naxçıvan Muxtar Respublikasında sağlamlıq imkanları məhdud uşaqların təhsili və reabilitasiyası üzrə Dövlət Proqramı"nın icrası ilə bağlı Naxçıvan Muxtar Respublikası Əmək və Əhalinin Sosial Müdafiəsi Nazirliyinin Tibbi-Sosial Ekspertiza və Reabilitasiya Agentliyinin direktoru Ramin Səfərovla həmsöhbət olduq. O bildirdi ki, muxtar respublikada uşaqların təhsili, sağlamlıqlarının qorunması, istedadlarının üzə çıxarılması, intellektual inkişafı, asudə vaxtlarının düzgün təşkilinin təmin edilməsi məqsədilə ardıcıl tədbirlər həyata keçirilir. Sağlamlıq imkanları məhdud uşaqların tibbi və sosial reabilitasiyası ilə bağlı tədbirlərin əhatə dairəsi isə xüsusilə genişlənməkdədir. Həyata keçirilən tədbirlər bu kateqoriyadan olan uşaqların sosiallaşmasına, sağlam həyat tərzi keçirmələrinə, təhsilə maraqlarının artmasına, bacarıq və qabiliyyətlərinin inkişaf etdirilməsinə şərait yaradır.

Ramin Səfərov dedi ki, yeni Dövlət proqramının qəbul edilməsi muxtar respublikada sağlamlıq imkanları məhdud uşaqlara göstərilən diqqət və qayğının bariz nümunəsidir. Bu dövlət sənədinin əsas məqsədi bu kateqoriyaya aid uşaqların təhsilə və cəmiyyətə inteqrasiyası, inklüziv təhsil imkanlarından geniş istifadə olunması, distant təhsil proqramlarının təkmilləşdirilməsi, fiziki imkanları məhdud uşaqların sosial reabilitasiyasının təmin olunmasından ibarətdir.

Həmsöhbətim onu da vurğuladı ki, Dövlət proqramının əsas prioritet istiqamətlərindən biri müvafiq kateqoriyadan olan uşaqlar üçün tolerant və hərtərəfli təhsil mühitinin yaradılmasıdır. Məlumat üçün qeyd edək ki, "2016-2020-ci illərdə Naxçıvan Muxtar Respublikasında sağlamlıq imkanları məhdud uşaqların təhsili və reabilitasiyası üzrə Dövlət Proqramı"nın icrası müddətində də onların təhsilə cəlbi sistemli xarakter alıb, inklüziv təhsil üçün əsaslı zəmin hazırlanıb. Müvafiq dövr ərzində, sağlamlıq imkanları məhdud 59 uşaq məktəbəqədər, 372 uşaq ümumtəhsil müəssisələrinin 1-ci siniflərinə, 147 uşaq musiqi məktəblərinə, 797 uşaq isə məktəbdənkənar təhsil müəssisələrinə və idman qruplarına cəlb edilib. Həmçinin bu dövr ərzində Məhdud Fiziki İmkanlılar üçün Naxçıvan Regional İnformasiya Mərkəzində arterapiya və kompüter kursları, kinekt oyunları və əmək terapiyası otaqları fəaliyyətini davam etdirib, yeni xidmətlər, musiqi terapiyası və təlim-bərpa otağı istifadəyə verilib. Mərkəzdə təşkil edilən məşğələlərə, ümumilikdə, 376 uşaq cəlb edilib. Sağlamlıq imkanları məhdud uşaqların tibbi reabilitasiyası ilə bağlı da ötən dövrdə ardıcıl tədbirlər icra olunub, bunun üçün Naxçıvan Uşaq Bərpa Mərkəzində hərtərəfli şərait yaradılıb, Naxçıvan Muxtar Respublikası Ali Məclisi Sədrinin tapşırığına əsasən mərkəzə yeni tibbi avadanlıqlar alınıb, həyətyanı sahəsində sağlamlıq imkanları məhdud uşaqlar üçün uyğunlaşdırılmış əyləncəli oyun sahəsi istifadəyə verilib.



Müsahibim qeyd etdi ki, görülən bu işlərlə yanaşı, proqramın qarşıdakı dövr ərzində icrası ilə əlaqədar gözləntilər də çoxdur. Əsas prioritet istiqamətlərindən biri müvafiq sosial kateqoriyadan olan uşaqların təhsilə cəlbində davamlılığın təmin edilməsindən ibarətdir. Bu məqsədlə tədris prosesi ərzində muxtar respublikanın ümumtəhsil, məktəbdənkənar, uşaq musiqi və idman məktəblərində təhsilə cəlb edilmiş bu kateqoriyadan olan uşaqlarla maarifləndirici söhbətlər həyata keçirilir. Monitorinq zamanı məktəb psixoloqlarının sağlamlıq imkanları məhdud olan uşaqların psixoloji durumu ilə bağlı valideynlərlə sıx təmasda olmasına, onlara xüsusi həssaslıqla yanaşmaqla daim nəzarətdə saxlanılmasına dair müvafiq tövsiyələr verilir, psixoloqların, valideynlərin iştirakı ilə maarifləndirici seminarlar təşkil edilir.

Müsahibimlə söhbət zamanı onu da öyrəndik ki, sözügedən Dövlət proqramında sağlamlıq imkanları məhdud uşaqların müasir informasiya texnologiyalarından istifadə sahəsində biliklərinin artırılmasına da xüsusi önəm verilir. Proqramın icrası, müvafiq kateqoriyadan olan uşaqların müasir dövrün texnoloji imkanlarından daha fəal istifadə etməsi ilə bağlı görüləcək işlər onların həmyaşıdlarından geri qalmamasına və inteqrasiya imkanlarının çoxalmasına gətirib çıxaracaq. Tədrisin ənənəvi forması ilə yanaşı, distant dərslərin də təşkili uşaqların keyfiyyətli təhsil alması üçün çoxşaxəli fəaliyyətin həyata keçirilməsində böyük rol oynayır. Proqramın icrası zamanı qarşıya qoyulan əsas hədəflərdən biri də məhz təlim-tədris proseslərinin daha da müasirləşdirilməsidir. Bununla əlaqədar sağlamlıq imkanları məhdud uşaqların müasir informasiya texnologiyalarından istifadə sahəsində biliklərinin artırılması xüsusi önəm verilir. Dövlət proqramında bu kateqoriyadan olan uşaqların inklüziv dərslərə cəlb edilməsini nəzərdə tutan tapşırıqlar müəyyən olunub. Bu tapşırıqları icra etmək üçün sağlamlıq imkanları məhdud uşaqlarla görüşlər olur, onların dərs ləvazimatları, məktəbli və qış geyimləri ilə təmin edilmələri, həmçinin istedadlarının aşkara çıxarılması, asudə vaxtlarının səmərəli təşkili məqsədilə müxtəlif müsabiqələr, sərgi, bilik və idman yarışları keçirilir. Eyni zamanda bu qəbildən olan uşaqlara muxtar respublikada fəaliyyət göstərən muzeylərə, tarix və mədəniyyət abidələrinə ekskursiyalar təşkil edilir, onlar üçün müxtəlif filmlər nümayiş olunur. Naxçıvan Muxtar Respublikası Paralimpiya Federasiyası tərəfindən istedadlı idmançıları aşkara çıxarmaq məqsədilə müxtəlif idman yarışlarının keçirilməsi onların sağlam ruhda böyüməlinə və cəmiyyətdə özlərinə layiqli bir mövqe tutmalarına stimul verir.

Son olaraq müsahibim onu da vurğuladı ki, proqramın icrası çərçivəsində sağlamlıq imkanları məhdud uşaqların Naxçıvan Uşaq Bərpa Mərkəzində müvafiq tibbi reabilitasiyası üçün də hərtərəfli şərait yaradılıb. Bu şəraitdən düzgün istifadə olunması diqqətdə saxlanılır.

*Bütün bunlar onu deməyə əsas verir ki, yeni Dövlət proqramının icrası sağlamlıq imkanları məhdud uşaqların cəmiyyətə inteqrasiyasına, onların təhsilində müasir üsulların tətbiqinə təkan verəcək, müvafiq pedaqoji kadrların hazırlanmasına şərait yaradacaq, onların təhsilə cəlbinin davamlılığını təmin edəcək, inklüziv və məsafədən təhsil imkanlarını daha da artıracaqdır.*

**Aytac CƏFƏRLİ**

Milli dəyərlərimizi öyrənək və yaşadaq

# Milli mədəni irsimizi özündə yaşadan yun kitabələrimiz



***Azərbaycan xalq-tətbiqi sənəti və onun bir qolu olan xalçaçılıq xalqımızın milli mədəniyyət tarixində özünəməxsus yer tutur. Arxeoloji materiallara və yazılı mənbələrə əsasən Azərbaycanda xalçaçılıqla hələ Tunc dövründən məşğul olmuşlar. Tarixi qədim bir dövrü əhatə edən xalçaçılıq sənəti müxtəlif naxış elementləri və təsvirlərlə bəzədilən xovlu və xovsuz növlərə ayrılıb. Bu məmulatlardan dəyələrin, çadırların, alaçıqların, habelə evlərin və digər binaların divar bəzəklərində, döşənməsində istifadə edilib. Nadir sənət nümunələrindən olan xalçaçılıq sənətinin YUNESKO-nun qeyri-maddi mədəni irs siyahısına daxil edilməsi bu sənət növünün dünyada bir daha tanıdılması deməkdir.***



Qədim Azərbaycan torpağı olan Naxçıvan Yer kürəsində həyatın başlandığı ilk insan məskənlərindən biri, eyni zamanda dünyanın da ən qədim mədəniyyət mərkəzlərindəndir. Qədim Şərq sivilizasiyaları ilə sıx bağlı olan Naxçıvan, tarixi inkişafın gedişində dərin iz qoymuşdur. Bu diyar Azərbaycan xalqının zəngin tarixini, elmi və mədəni irsini, milli-mənəvi dəyərlərini formalaşdırmışdır. Naxçıvanda keçmişdən bu günə xalçaçılıq özünün adi toxuculuğa əsaslanan inkişafında uzun bir təkamül yolu keçmişdir. Eneolit dövründən məlum olan toxuculuğun mənşəyini Qobustandan tapılan, Neolit dövrünə aid, bitki xammalından sadə hörmə metodu ilə müxtəlif əşyaların hazırlanması üçün işlədilən alətlər və Naxçıvandakı Kültəpə ərazisindən tapılan Eneolit dövrünə aid gildən düzəldilmiş cəhrələr, sümük tağalaqlar, iylər, gil qabların içərisində tapılmış xalça toxunulan zaman istifadə edilən iplərin boyandığı qırmızı rənglər əsaslı şəkildə ortaya qoyur. Bu ərazidən həm də xalça qalıqları da tapılmış elmi araşdırmalar nəticəsində bəlli olmuşdur ki, bu xalça qalıqları ilk dəfə sadə keçirmə yolu ilə toxunmuş həsir qalıqlarıdır.

Tarixi kifayət qədər qədim olan xalçaçılıq sənətinin ilkin inkişaf mərhələsini *keçələr* təşkil edir. Ölkəmizin bir çox bölgəsində olduğu kimi, Naxçıvanda da keçəçilik sənəti vaxtilə geniş yayılmışdır. Burada keçələr özünəməxsus formada hazırlanırmış. Belə ki, yun dididildikdən sonra onu ağ parçanın üstünə sərirmişlər. Bundan sonra yun sərilmiş ağ parçanı hamarlanmış, yonulmuş, düz silindrik ağaca büküb hər iki tərəfdən bərk bir şəkildə bağlayırmışlar. Bu ağacın adına isə "ox" deyirdilər. 5-6 nəfərin iştirakı ilə onu ayaqlayır, sonra ayaqları ilə vura-vura fırladırdılar ki, yetişsin. Salınmış yunun üzərinə isə hərdən bir ılıq su və ya yumurta sarısı səpirdilər ki, yun bir-birinə daha tez yapışsın. Yun yapışıb keçə halına gələnədək bu proses davam edirdi. Yunun yapışması üçün küncləri toxmaqla döyülürdü.

İstifadə təyinatına görə keçələr müxtəlif qalınlıqlarda hazırlanırdı. Buna görə də keçələrin bir neçə növünü sadalamaq olar. Qara keçə və ya qəlib keçəsi, yük keçəsi, yəhər keçəsi, dolaq keçəsi, at keçəsi, qapı keçəsi, namazlıq keçə, qundaq keçəsi, təpmə keçə. Keçələrə, eyni zamanda qadın və kişi geyimlərində də rast gəlinir. Çoban yapıncısı buna bariz nümunədir ki, bu da məhz təpmə keçədən hazırlanırdı. Qara keçə və ya qəlib keçələrdən, əsasən, döşənək kimi istifadə edilirdi, yük keçəsi köç zamanı yüklərin örtülməsində, yağışdan, tozdan qorumaq məqsədilə yəhər keçəsi at belinə yəhərin altından qoyulmaq üçün, dolaq keçəsi, xüsusən çobanların qış dövründə sürünü otararkən ayaqları donmasın deyə, ensiz halda hazırlanmış keçələrdir. Qapı keçəsi adından da göründüyü kimi, pərdə rolunu oynayırdı ki, bu keçələrə basma üsulu ilə xüsusi bəzəklər vurulurdu. Namazlıq keçələrsə namaz qılarkən, ibadət edərkən istifadə olunan keçələrdir. Bu keçələrin üzərində islamiyyəti ifadə edən müxtəlif elementlər (ay, ulduz, minarəbaşı və sair) təsvir edilirdi. Sərt iqlimdə köçəri həyat tərzi sürən bəzi tayfalar ailənin körpə fərdini soyuqdan qorumaq məqsədilə qundaq keçəsindən istifadə edirdilər.

*Çətən* el arasında "həsir" adı ilə də tanınan xovsuz xalçaların ilkin nümunələrindən hesab edilir. Bu döşənək növü cığalı və qamış bitkilərinin yaz dövründə toplanmış incə şivlərindən hazırlanırdı. Daha çox dağlıq və dağətəyi bölgələrdə xalça-palazın altından nəmişliyi və rütubəti aradan qaldırmaq məqsədilə, həmçinin yay döşənəyi kimi istifadə edilirdi. Qeyd etmək lazımdır ki, Kültəpə ərazisindən tapılmış döşənək növünün də məhz çətən olduğu təsdiqlənmişdir. Çətənlər sadə keçirmə üsulu ilə ərsəyə gəlirdi.

Bədii xüsusiyyətlərinə və toxunma texnologiyalarına görə xalçalar iki qrupa bölünür: xovlu və xovsuz xalçalar. Xovsuz xalçalar daha qədim olub öz toxunma üsuluna, kompozisiya quruluşuna, ornament zənginliyinə və rəng koloritinə görə bir-birindən fərqlənən 8 növə bölünür: 1.Palaz 2.Cecim 3.Ladı. 4.Kilim. 5.Şəddə 6.Vərni 7.Zili 8.Sumax.



Xovsuz xalçalar toxuculuq sənətinin ən erkən dövrünə təsadüf edən, dekorasiya və ya istilik yaratmaq məqsədilə divardan asmaq, ya da döşəməyə sərmək üçün ipək, yun, pambıq saplardan toxunmuş naxışlı, gözəl və qalın parça növüdür. Bu xalçalar firavanlıq simvolu kimi yaşayış yerlərinin bəzədilməsi və isidilməsi üçün ən qədim ixtiralardan biri olmaqla yanaşı, əsrlər boyunca, həm də dekorativ-tətbiqi sənətin ən yaxşı və yüksək zəhmət tələb edən növlərindən biri olmuşdur.

Naxçıvan xalça sənəti özünəməxsus yüksək bədii texniki keyfiyyətinə, xovsuz toxunuşun müxtəlifliyinə görə digər bölgələrdən fərqlənir. Naxçıvanda xovsuz xalçaların bir çox növü toxunmuşdur.

Xalçatoxuma sənətinin düyünləmə, yəni əvvəllər dolama ilmə, sonralar isə qullabı ilmə texnikası ilə əmələ gələn xovlu xalçatoxuma üsulunun inkişaf etdiyi dövr istər texniki, istərsə də bədii cəhətdən bu sənətin yüksək inkişaf dövrü hesab edilir. Hələ eramızdan əvvəl tətbiq olunan ilmə düyün texnikası, bütün başqa üsullardan fərqli olaraq mürəkkəb kompozisiyaların tətbiq edilməsinə imkan yaratmışdır. Bu texnikanın inkişafı ilə əlaqədar yeni istehsal alətləri (dəmir qayçı, bıçaq) meydana gəlmişdir. İstər xovlu, istərsə də xovsuz xalçaların toxunma prosesində digər istehsal alətlərindən (həvə, kirkidən) istifadə edilmişdir.

Naxçıvan ərazisində, əsasən, "Açma-yumma", "Aran", "Qoca", "Buynuz", "Dəryanur", "Balıq", "Şabalıd buta" adlı xovlu xalçalar daha çox üstünlük təşkil etmişdir. Naxçıvan xalçalarının ilmə sıxlığı 30x30-dan 40x40-a qədər olur. Bu bölgələrdə toxunan xalçaların bir kvadratmetrində 90 mindən 160 minə qədər ilmə yerləşir. Bəzən isə bir kvadratmetrdə 200 min ilməsi olan xalçalara da təsadüf edilir.

Naxçıvan qrupuna daxil olan xovlu xalçaların ilmə hündürlüyü, yəni xovunun qalınlığı 6 millimetrdən 10 millimetrə qədər olur. Əksər hallarda uzunsov olan Naxçıvan xalçalarının palitrası rəngarəng və çox zəngindir. Bu xalçaların rəngləri şux, parlaq olur. Bu rənglər Naxçıvan ərazisinin təbii-coğrafi şəraiti, gözəl mənzərələri, bağları, meşələri və yaşıl çəmənlikləri ilə əlaqədar olaraq meydana gəlmişdir.

Milli xüsusiyyətlərimizin ən parlaq nümunələrindən biri olan xalçaçılıq sənətinin yaşadılması və inkişaf etdirilməsi ölkəmizdə, eləcə də muxtar respublikamızda hər zaman dövlətimizin diqqət mərkəzindədir. Eyni zamanda Azərbaycan Respublikasının Prezidenti cənab İlham Əliyevin 2016-cı il 5 may tarixdə imzaladığı Sərəncam ilə "Azərxalça" Açıq Səhmdar Cəmiyyəti yaradılmış və həmin tarix ölkəmizdə hər il "Xalçaçı günü" peşə bayramı kimi qeyd edilir. Eləcə də "Naxçıvan şəhərində xalça istehsalı emalatxanasının tikintisi, təchizatı və infrastrukturunun yaradılması ilə bağlı tədbirlər haqqında" Azərbaycan Respublikası Prezidentinin 2018-ci il 15 fevral tarixli Sərəncamı ölkə rəhbərinin bu sənətə böyük diqqət və qayğısının bariz nümunəsidir. Qədim diyarımızda bu sahənin qorunub saxlanılması və gələcək nəsillərə çatdırılması məqsədilə Naxçıvan Muxtar Respublikası Ali Məclisinin Sədri cənab Vasif Talıbovun tapşırığı və Nazirlər Kabinetinin 1997-ci il 22 dekabr tarixli Qərarına əsasən Naxçıvan Dövlət Xalça Muzeyi yaradılmışdır. 1998-ci il 26 yanvar tarixdən 387 eksponatla 200 ildən artıq tarixə malik olan qədim Xan evində fəaliyyətə başlayan muzeyin fondunda bu gün dörd minə yaxın eksponat mühafizə edilir. Muzey 2010-cu ildə müasir tələblərə cavab verən, Naxçıvan şəhərinin tam mərkəzində yerləşən yeni bina ilə təchiz edilmişdir. 1999-cu ildə muzeyi ziyarət edən ümummilli liderimiz Heydər Əliyev xalçaçılıq sənətinin xalqımızın həyatında önəmli yer tutduğunu vurğulamışdır.

Naxçıvan Muxtar Respublikasında xalça sənətinin qorunmasına və inkişaf etdirilməsinə dair 2018-2022-ci illər üçün Dövlət proqramının təsdiq edilməsi haqqında Naxçıvan Muxtar Respublikası Ali Məclisi Sədrinin 2018-ci il 9 aprel tarixli Sərəncamı da mühüm əhəmiyyət kəsb edir. Belə ki, bu sərəncama əsasən Naxçıvan Muxtar Respublikası Mədəniyyət Nazirliyi tərəfindən 635 ədəd əl ilə toxunmuş xalçanın reyestri hazırlanmış və Naxçıvan Muxtar Respublikası Nazirlər Kabinetinin müvafiq qərarına əsasən təsdiq edilmişdir.

*Hər bir xalq təkrarolunmaz olduğu kimi, onun yaratdığı incəsənət nümunələri də bənzərsiz milli xüsusiyyətlərə malikdir. Analarımızın, nənələrimizin əl əməyi, göz nuru olan xalçalarımız da milli-mənəvi dəyərlərimizin yaşadıcıları, mədəni informasiyaların toplandığı qədim yun kitabələrimizdir. Bir xalqın əsrlərboyu qazandığı hər hansı bir milli dəyəri qorumadan gələcək nəsillərə çatdırması mümkün deyil. Sevindirici haldır ki, sahib olduğumuz milli dəyərlərə bu gün ölkəmizdə yüksək qiymət verilir və xalq sənəti növləri hərtərəfli dövlət qayğısı əhatəsindədir. Növündən asılı olmayaraq, kamilliyi ifadə edən bütün sənət əsərləri, eləcə də xalçalarımız bundan sonra da sənəti, onları yaradan sənətkarları yaşadacaqdır.*

**Ülviyyə MƏMMƏDOVA**
***Naxçıvan Dövlət Xalça Muzeyinin direktoru***

## Maarifləndirici tədbir keçirilib



Dünən Naxçıvan Muxtar Respublikası Əmək və Əhalinin Sosial Müdafiəsi Nazirliyi və Şahbuz Rayon İcra Hakimiyyətinin birgə təşkilatçılığı ilə sağlamlıq imkanları məhdud şəxslərin, yaşı 18-dən az olanların və qadınların məşğulluğunun, sosial müdafiəsinin təmin edilməsi, həmçinin onların əməyindən qanunvericiliyə uyğun istifadə edilməsinə dair maarifləndirici seminar keçirilib. Tədbiri giriş sözü ilə açan Şahbuz Rayon İcra Hakimiyyəti başçısının müavini Tural Quliyev bildirib ki, Naxçıvan Muxtar Respublikası Ali Məclisi Sədrinin 2019-cu il 29 mart tarixli Fərmanı ilə təsdiq edilmiş "Naxçıvan Muxtar Respublikasının 2019-2023-cü illərdə sosial-iqtisadi inkişafı Dövlət Proqramı"nın icrası digər sahələrdə olduğu kimi, əhalinin məşğulluğunun təmin edilməsində sosial layihələrin icrasına əlverişli zəmin yaradıb. Bu istiqamətdə həyata keçirilən tədbirlər sağlamlıq imkanları məhdud, yaşı 18-dən az olan şəxslərin, qadınların məşğulluğunun və sosial müdafiəsinin təmin edilməsində özünü göstərməklə, müvafiq kateqoriyadan olan şəxslərin sosial təminatını daha da yaxşılaşdırıb.

Naxçıvan Muxtar Respublikası Əmək və Əhalinin Sosial Müdafiəsi nazirinin müavini Canməmməd Canməmmədov çıxış edərək bildirib ki, Naxçıvan Muxtar Respublikası Ali Məclisi Sədrinin təsdiq etdiyi müvafiq Dövlət proqramlarının icrası çərçivəsində sağlamlıq imkanları məhdud şəxslərin və qadınların məşğulluğunun təmin edilməsi muxtar respublikamızda diqqət mərkəzində saxlanılır və bu istiqamətdə ardıcıl tədbirlər həyata keçirilir.

Tədbirdə nazirlik yanında Dövlət Əmək Müfəttişliyi Xidmətinin rəisi Elnar Hüseynov, Dövlət Məşğulluq Agentliyinin direktoru Vüsal Süleymanlı çıxış edərək müəssisə və təşkilatlarda müvafiq kateqoriyadan olan şəxslərin və qadınların əmək hüququ, əmək qanunvericiliyinə dair normativ-hüquqi aktlarda bu şəxslər üçün müəyyən olunan güzəştlər, imtiyazlar və əlavə təminatlar, işə düzəlməkdə çətinlik çəkən şəxslər üçün kvota tətbiq edilməsi qaydalarından danışıblar.

***Naxçıvan Muxtar Respublikası Əmək və Əhalinin Sosial Müdafiəsi Nazirliyinin mətbuat xidməti***

## Ustad dərsləri təşkil edilib

*Naxçıvan Muxtar Respublikası Atletika Federasiyası tərəfindən növbəti ustad dərsləri təşkil edilib.*

Ordubad şəhərindəki 1 nömrəli tam orta məktəbdə yaradılan ağır atletika bölməsində məşqçilər və idmançılar üçün keçilən ustad dərsləri Şərur rayon ağır atletika bölməsinin məşqçi-müəllimi Şəfi Hüseynov tərəfindən aparılıb. Dərsləri təşkil etməkdə məqsəd uşaqların bu idman növünə cəlbi, kütləviliyin təmin edilməsi, məşqçi və idmançılara ağır atletika idman növünün yeni qaydaları haqqında məlumat vermək, onların bilik və bacarıqlarını təkmilləşdirmək, eyni zamanda Ordubad şəhərində bu növün inkişafını təmin etməkdən ibarət olub.



İdmançılara bütün qaydalar haqqında nəzəri və praktik olaraq məlumat verən Şəfi Hüseynov onların suallarını cavablandırıb.

Qeyd edək ki, Atletika Federasiyası bu növün inkişafı üçün ustad dərslərini növbəti aylarda muxtar respublikanın bütün şəhər və rayonlarında da təşkil edəcək.

**✍ Ceyhun MƏMMƏDOV**

### İtmişdir

Kəngərli rayon Şahtaxtı kənd sakini Səfərov Arif Qadir oğlunun adına olan JN-519$^{A}$ inventar nömrəli "Torpağın mülkiyyətə verilməsinə dair şəhadətnamə" itdiyindən etibarsız sayılır.


ŞƏRQ qapısı

Baş redaktor: MEHRİBAN SULTANOVA

Ünvan: AZ-7000, Naxçıvan şəhəri, "Təbriz" küçəsi 14.
Telefonlar: Məsul katib: 545-62-47
Şöbələr: 545-81-44, 545-51-18
Müxbirlər: 545-75-21, Faks: 544-52-52
E-mail: serqqapisi@nakhchivan.az

Qeydiyyat №: 575

Əlyazmalara cavab verilmir və onlar geri qaytarılmır

Nömrəyə məsul: Gülcamal Tahirova
Qəzet redaksiyanın kompüter mərkəzində yığılıb, səhifələnib və Əcəmi NPB-də ofset üsulu ilə çap olunmuşdur.

Tiraj: 1500. Sifariş № 358